

## AYNUR YASƏMƏN

### BİR KƏLMƏ "ALO" DE

Havası iztirab, günəşi zülüm,
Sabaha bir nəfəs ümid qızıyam.
İnsafsız, gəl daşı tök ətəyindən,
Bir kəlmə "alo" de, ona razıyam.

Ruhumu, cismimi şad etmək üçün,
Bir süzgün baxışın yetərdi, inan.
Doymuram can param sənli anlardan,
İndi də səsinçün darıxdım yaman.

Çox yedim, doymuşam boğaza qədər,
Sayəndə yediyim kədərdən, qəmdən.
Deyirəm bəlkə də, zaman gələcək,
Olacam mən sənə ən yaxşı həmdəm.

### SEVİNDİR MƏNİ

Bu gün yenə fəsil-fəsil gəlmişdin,
Gah qış idi, gah yaz idi gözlərin.
Qarışdırdı duyğuları, əzizim,
Dilindəki, gözündəki sözlərin.

Sanki soldan vurdu məni ildırım,
Qaçıb getdi damağımın dadı da.
Parçaladın ürəyimi can param,
Yaddan çıxdı ən dogmamin adı da.

Bu gün çox anmışam adını, səni,
Dilimdə dəmlənib pürrəngi çay tək.
Gəlişin-gedişin xatirə verir,
Həm qucaq dolusu, həm ətək-ətək.

Gözlərim zillənir getdiyin səmtə,
Baxışım sakitcə süzülür yola.
Gözümü qırpmadan baxıram, ömrüm,
Deyirəm bu gələn bəlkə o, ola.

Getmisən, bir daha əmin oluram,
Bir vida etmədən, "sağ ol" demədən.
Qəhər boğazıma sarılır o an,
Uşaqtək kəsilləm yemək yeməkdən.

Qayıt gəl Aynurun şah Süleymanı,
Dayanım quluntək, gözləyim səni.
Neynəyim, gəlmirsən, gəlmə, əzizim,
Adi bir zənginlə sevindir məni.

### YAMAQ HƏSRƏT

Özün yoxsan, elə bilmə yalqızam,
Can evimdə ruhun mənə qonaqdı.
İndi həsrət gülər üzlə gəzsə də,
Söküləcək, bilirəm ki, yamaqdı.

Varlığın yaşadır uzaq olsan da,
Çalışıb kədəri küncə atıram.
Qollarım boş qalmır yataqda, ömrüm,
Adi xatirəni qucub yatıram.

Kənardan bəlkə də, hiss olunmur heç,
Mənim sənin boyda ağrım, acım var.
Gözücu baxmağın bəs edir, vallah,
İnan ki, ona da, ehtiyacım var.

### QULUN OLMUŞAM

Qəlbimdən alovlu həyəcan keçir,
Gəlişin səs-soraq saldığı anda.
Gözümün giləsi alışıb yanır,
Buz sima, sərt baxış qalır o yanda.

Astaca gəlişin süzülür su tək,
Nəfəsin bürüyür sanki hər yeri.
Gözümdə büllura dönür hər nə var,
Adicə dəmirin artır dəyəri.

Gözlərin gözümə dikilir hərdən,
Azıram o xırda, ümman gözündə.
Bəlkə də, bu dəli qızın halına,
Gülürsən əzizim, özün özündə.

Hər səni göröndə sarılmamaqçün,
Boğuram nəfsimi öz əllərimlə.
Bəxtəvər edirsən Qarabağ qızın,
Hərdən o mübarək qədəmlərinlə.

Qəlbim qan ağlayır, keyləşir ruhum,
Ayrılıb gedirsən, mənim hər kəsim.
Bilmədən əsirin, qulun olmuşam,
Aparır özüylə hər addım səsin.

## DƏRDİM SƏNDƏN YUXARIDI

*(Göyün üzünə bulud gələn kimi,*
*gözlərim buluddan da dolu olur)*

Göy üzünə naxış salan ağ bulud,
Səndə göz yaşımın buxarıdımı?
Boylan, qurban olum üzü yuxarı,
Bir gör dərdim səndən yuxarıdımı?

Dava-dərman sağaltmayır yaramı,
Yalan yerə verməsinlər "bint", sarğı.
Qarabağın bulağından yağ bir az,
Bəlkə bu cür sakitləşər, bu ağrı.

Baxışlarım zillənibdi ümidə,
Gözləyirəm xoş günləri səbirlə.
İnan, bulud, elə günə düşmüşəm,
Sanki suyu daşıyıram xəlbirlə.

Dərd can alır, qübar edir həsrəti,
Niskil dolu elim-obam, yurd-yuvam.
Qadir ALLAH mənə elə güc verə,
Düşmənləri kəndimizdən tez qovam.

Oğul qanı çatlarını dolduran,
Ana torpaq qurban olum dərdinə.
Qolu bağlı, əsir qalan hər anın,
İşgəncədir xalqımın hər fərdinə.

## ANANI ÖVLADLAR HƏR GÜN "ÖLDÜRƏR"

Elə ki, analıq dadar bir qadın,
Daima ürəyi ağzında gəzər.
Şirin yuxusundan ayılar tez-tez,
Bundan nə usanar, nə də ki, bezər.

Böyüyər balası, ancaq hələ də,
Ananın gözündə körpədir övlad.
Adi telefonu bir az gec açsa,
Sınır neçə yerdən bu zərif "polad".

Doğrayar hər qorxu bir qılınc kimi,
Ürəyin çırpınar göl qan içində.
Qocalar cismindən xəbərsiz ruhun,
Seçilərsən bir çox cavan içində.

Küləyə bağlayar duan ümidin,
Yetirə tanrıya bəlkə yel baba.
Dəyişər gözündə dünyanın donu,
Çevrilər hər tərəf olar xaraba.

Dizinin taqətin yeyər hər addım,
Yıxılıb qalarsan izin üstünə.
İçindən qovrulub yanarsan, amma,
İnsanlar da laqeyd qalar tüstünə.

Əsəbi səs gələr qulaqlarına,
"Yenə nə olubdu, yığırsan məni",
Əsəbi səsi də xoş gələr sənə,
Az qala öpərsən kobud kəlməni.

Hönkürüb ağlarsan sevincdən hətta,
Sinənin körüyü yaşın söndürər.
Bəlkə də hiss etməz bunu bir ömür,
Ananı övladlar hər gün "öldürər".

Əllərin ALLAHIN ətəklərindən,
Asılı saxlayar hər an, hər saat.
Dincliyi çəkilər ərşin yanına,
Başını balınca o, qoymaz rahat.

Dayanar yenə də sakit, əlacsız,
Pəncərə önündə şam tək əriyər,
Baxışı dağılar cığıra, yola,
Duası dilini yağır eliyər.

Duayla keçirər ana bilmədən,
İllərin laləzar, gülşən çağını.
Analar bəzəyər övlad adıyla,
Ömrünün qocalmış hər varağını.